*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 may 2017-ci il № 36 (2153) Qiyməti 25 qəpik


# "Gücümüz həmrəylikdədir!"

## "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının rəsmi açılış mərasimi



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olunur.*

Oyunlara ev sahibliyi etməyin Azərbaycan üçün böyük şərəf olduğunu deyən Mehriban Əliyeva dörd qitədən gəlmiş minlərlə idmançını və paytaxtımızın qonaqlarını ingilis və Azərbaycan dillərində salamlayır. O, IV Oyunların keçirilməsini Bakıya həvalə etdiyinə görə İslam Həmrəyliyi İdman Federasiyasına minnətdarlıq edərək deyir: "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir. İdmana yatırdığımız böyük sərmayə dünya səviyyəsində bacarıqları mənimsəməklə, qurğuları və infrastrukturları yaratmaqla gələcək üçün böyük irsi təmin etdi. Bu axşam biz İslam aləmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur".

Ölkəmizin multikultural tarixinin açıq, tolerant cəmiyyətimizin ən ülvi hissəsi olduğunu vurğulayan Mehriban Əliyeva qeyd edir ki, Azərbaycan İslam tarixi və irsinin bir hissəsi olmaqdan, İslam dəyərləri ilə bölüşməkdən fərəh duyur. Bu Oyunların qələbə qazanacaq atletlərinin təltif olunacağı medallardan tutmuş möhtəşəm açılış və bağlanış mərasimləri kimi yaradıcı elementləri zəngin mədəniyyətimizi ilhamlandıracaq.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# "Gücümüz həmrəylikdədir!"





(Əvvəli 1-ci səhifədə)

"Mən gözəl gənc könüllülərimizin hamısını salamlayıram. Biz sizinlə fəxr edirik. Sizin fədakarlığınız və vurğunluğunuz, xeyirxahlığınız və qətiyyətiniz bu Oyunları mümkün etdi. Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

İslam aləminin idmançıları, sizi burada qonağımız kimi görmək olduqca sevindiricidir. Bütün Azərbaycan sizinlədir və sizə böyük uğurlar arzulayır. Bu, sizin Oyunlarınızdır. Gələn on gün ərzində ölkəmiz sizin eviniz olacaq. Bu axşam mən ölkəmizin bütün nailiyyətlərinə görə qarşınızda fərəh hissi ilə çıxış edirəm", - deyən Birinci vitse-prezident Mehriban Əliyeva çıxışını bu sözlərlə tamamlayır: "Gücümüz həmrəylikdədir! - Bu ruhlandırıcı mesajı Oyunlarımız Azərbaycanın hüdudlarından çox uzaqlara göndərəcək".

* * *

Mikrofon önünə İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin keçir. O, möhtəşəm tədbirin təşkilində göstərdikləri səylərinə görə Azərbaycan xalqına, Prezident İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevaya və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirərək, Oyunların İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə idmanın təşviqinə töhfə verəcəyinə, İslam aləmində gənclərə dəstək olacağına əminliyini ifadə edir.

Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsinin 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" ilə üst-üstə düşdüyünü vurğulayan Yusif Əl-Osaymin qeyd edir ki, Azərbaycan bununla multikulturalizmin gücləndirilməsində, mədəniyyətlərarası dialoqun və sivilizasiyalararası ünsiyyətin möhkəmləndirilməsində, idman vasitəsilə İslam dəyərləri barədə biliklərin qlobal səviyyədə yayılmasında fəal iştirakını nümayiş etdirir.

İslam Həmrəyliyi Oyunlarının dünyada ən böyük idman tədbirlərindən biri olduğunu diqqətə çatdıran baş katib deyir: "Bu Oyunlar müxtəlif mədəniyyətlərə malik fərqli ölkələrdən gəlmiş təxminən 4000 atleti bir araya gətirir. Bu, İslam həmrəyliyini əyani şəkildə nümayiş etdirir. Bu, İslamın əsl mahiyyətini, onun sülh və tolerantlıq dini olduğunu əks etdirir. Bu, mədəniyyətlərindən və fərqlərindən asılı olmayaraq, xalqlar arasında birlik, harmoniya, dostluq tellərini və dinc şəraitdə yanaşı yaşamaq tərzini gücləndirir".

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Oyunları açıq elan edir.

Stadionu alqış səsləri bürüyür. Atəşfəşanlıq başlayır və gecə səmasında fişənglərin yazdığı "Bakı-2017" sözləri bərq vurur.

**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# "Azərbaycan Respublikasına xidmət edirəm!"

*Leytenant Qadir Quliyevlə xidmət etdiyi hərbi hissədə görüşüb söhbət etdik. Ötən ilin aprel döyüşlərində fərqlənmiş cəsur zabitin xidmət və döyüş yoluna birgə nəzər saldıq. Təbii ki, məlum hadisələr zamanı bölmələrimizin düşməni necə məğlub etdiyini də xatırladıq.*

Azərbaycan Ordusunun bölmələri təxribatlarına cavab olaraq düşmənə ağır zərbələr endirdi və strateji əhəmiyyətli bir sıra yüksəklikləri, 2 min hektaradək ərazini işğaldan azad etdi. Zabit, gizir və əsgərlərimizin şücaəti Silahlı Qüvvələrimizin tarixinə həkk edildi.

Həmin döyüşlərdə iştirak etmiş hər bir zabit, gizir və əsgər əsl cəsarət və igidlik nümunələri göstərmişdilər.

Aprel zəfərinin döyüşçülərindən biri də leytenant Qadir Quliyev idi. Hadisələrin ildönümü ilə bağlı Təlim və Tədris Mərkəzində keçirilmiş təntənəli mərasimdə çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bölmələrimizin göstərdiyi peşəkarlığı yüksək qiymətləndirdi, döyüşlərdə fərqlənmiş hərbi qulluqçulara medallar və fəxri fərmanlar təqdim etdi. Təltif edilənlər arasında leytenant Qadir Quliyev də vardı.

Qadir Azərbaycana adlısanlı generallar bəxş etmiş Kəngərli rayonunun Böyükdüz kəndində dünyaya göz açıb. Yeniyetmə vaxtlarından Vətəni müdafiə etməyi özünə peşə seçməsində bu amilin böyük rolu vardı. Zabit olmağı arzulayan Qadir Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirərək leytenant paqonlarını aldığı günü ömrünün ən unudulmaz anlarından hesab edir.



O, 2016-cı ilin yanvarından taqım komandiri vəzifəsinə təyin olunmuş gənc zabit həvəslə xidmətə başlayır. Taqımının yüksək döyüş hazırlığına malik olması üçün bilik və bacarığını əsirgəmir. Tabeliyindəki döyüşçülərin nəyə qadir olması isə aprel döyüşləri zamanı bəlli olur.

- Düşmən atəşkəsi yenə pozmuşdu, - leytenant Quliyev deyir. - Döyüş komandası verilən kimi taqımın döyüşçüləri ilə biz də irəli atıldıq. Aprelin 1-dən 2-nə keçən gecə bölmələrimizin gücü ilə Lələtəpə düşməndən azad edildi. Sonra ələ keçirilmiş mövqeləri möhkəmləndirməklə məşğul olduq.

Qısa zamanda Vətən oğulları düşməndən alınmış mövqelərdə istehkam işləri aparmış, yeni postlar yaratmış, Lələtəpənin ətrafını alınmaz qalaya çevirmişdilər. Azğınlaşmış düşmən postlarımızı müxtəlif silahlardan atəşə tutmaqda davam edirdi. Döyüşçülərimiz ermənilərin təxribatlarını, təbii ki, cavabsız qoymur, layiqincə cavab zərbələri endirirdilər.

Aprelin 5-də səhərin erkən vaxtlarında ermənilər yenə mövqelərimizi minaatanlardan atəşə tutdu. Onda leytenant Qadir Quliyev ön xətdə döyüş növbəsi aparan əsgərlərinin yanında idi.

- Mən komanda verdim ki, üstüörtülü postdakı müşahidəçidən başqa hamı sığınacaqlara girsin, - gənc zabit xatırlayır. - Özüm bölük komandirinə məruzə etdim ki, düşmən artilleriya atəşinə başlayıb. Həmin vaxt minaatan mərmisi yaxınlığımıza düşdü və məni kənara atdı. Əvvəlcə ciddi ağrı hiss etmədim. Başqa bir döyüşçümüz də yaralanmışdı və mən dərhal onun yanına qaçdım. Sanitar-təlimatçının müayinəsindən sonra onu arxaya yola salmaq istəyirdik. Sanitar-təlimatçı yoxlayarkən mənim də ciddi yaralandığımı gördü. Ağrılarım da şiddətlənməyə başlamışdı. Ona görə məni də hərbi hospitala təxliyə etdilər.

Hospitalda müalicə olunarkən leytenant Qadir Quliyevin ürəyi ön xətdə döyüşçülərinin yanında qalmışdı. Tezliklə sağalıb döyüşçülərinin yanına qayıtmağa can atırdı. Hazırda özünü yaxşı hiss edir, səhhəti normallaşır. Vəzifəsinin icrası ilə məşğuldur.

Aprel döyüşlərinin ildönümünə həsr edilmiş təntənəli mərasimə leytenant Qadir Quliyev də dəvət edilmişdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov aprel döyüşləri zamanı göstərdiyi şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı cəsur zabitə təqdim etdi. Leytenant Qadir Quliyev əsl Azərbaycan hərbçisi kimi qürur hissilə cavab verdi: "Azərbaycan Respublikasına xidmət edirəm!"

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**12 may 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində qumbaraatanlardan, 60 və 82 millimetrlik minaatanlardan da (13 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 135 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Fərəhli, Kəmərli, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Ayqedzor, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu, Koxanəbi, Əlibəyli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Sarıcalı, Cəvahirli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz, Aşağı Veysəlli və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# Əsgərlərimiz Vətən ömrü yaşayır

*Uzaq üfüqdə dan yeri sökülür. Günəşin zərrin şüalarını seyr edəndə adama elə gəlir ki, orada - şərqdə nəhəng bir tonqal yandırılıb. Nəhayətsiz göy üzü min bir rənglə alışıb yanır, öz zənginliyi və gözəlliyi ilə insanı valeh edir. Yeni günün səhəri açılır...*

Hər tərəfdə sakitlik hökm sürən bir yaz səhəridi. Növbədə olan əsgərlər xidmətlərini öz qaydasında - nizamnamələrin tələblərinə uyğun aparırlar. Onlardan biri nizami addımlarla bizi qarşılayır, sənədlərimizə diqqətlə baxıb hər şeyin qaydasında olduğunu öyrənəndən sonra növbətçiyə məlumat verir.

Qərargahda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit polkovnik-leytenant Elnur Həsənovla görüşürük. Çox keçmir ki, zabitlə ovqatını daha da artırır. Aprel döyüşləri zamanı hərbi hissəmizin şəxsi heyəti də atəşkəs rejimini pozan, təxribat törədən düşmənə tutarlı cavab verdi. Qısa müddət ərzində düşmənin atəş nöqtələri susduruldu. Düşmən itki verərək geri çəkildi. Hiss etdilər ki, onların qarşısında döyüş hazırlığı yüksək olan, güclü Azərbaycan əsgəri dayanıb, bu gücün, bu qüdrətin qarşısında dayana bilməz. Azərbaycan əsgəri qələbəyə köklənib, güclü, məğrur və yenilməzdir".

Cəbhə bölgəsinə yaxın kəndlərdə yaşayan insanlar hərbçilərə güvənib bərəkətli torpaqlarda əkinlə məşğul olurlar. Onlar əmindirlər ki, ordumuz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıb. Ətrafda əkin sahələrini gördükcə sevinirəm.

Yaşayış məntəqələri bizdən xeyli arxada qalır. Ön xətdə şəxsi heyətin yanına gəlib çatırıq. Zabitlərdən Cahangir Eyvazov və Qadir Muradovla görüşürük. Dərin və geniş səngərlərdə sakitlik hökm sürür. danın əmri ilə torpaqlarımızı işğaldan azad edəcəyik.

Başqa mövqedə müşahidə aparan əsgər Akif Akifzadə hərbi xidmətə Astara rayonundan çağırılıb. Yeddi aydır ki, xidmətdədir. O deyir ki, hərbi həyat kişilik məktəbidir. "Çalışıram ki, bu məktəbin sınağından uğurla keçim, valideynlərimin, doğmalarımın, dostlarımın yanına alnıaçıq, başıuca qayıdım. Bu gün müxtəlif silahlardan bacarıqla istifadə edib, hədəfləri dəqiq vururam. Öyrəndiklərimə görə təcrübəli komandirlərimə minnətdaram. Fəxr edirəm ki, bu gün Vətənin keşiyindəyəm. Xidmətdə olduğum bu günlər ömür kitabımın səhifələrinə böyük hərflərlə yazılacaq. Hələ xidmətimin xeyli hissəsi qarşıdadır. Çalışacağam ki, silahların sirlərini daha dərindən öyrənim, xidmətdə daha böyük uğurlar qazanım."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Feruz Şükürov müddətli hərbi xidmətini başa vurandan sonra, 2016-cı ildə yenidən taleyini orduya bağlayıb.



birlikdə ön xəttə yola düşürük. Öyrənirəm ki, zabit Qarabağ müharibəsi iştirakçısıdı. "Mənim anadan olduğum Cəbrayıl rayonu 18 avqust 1993-cü ildə erməni qəsbkarları tərəfindən işğal olundu və hələ də işğal altındadır. Məsum insanlar, uşaqlar, qadınlar, yaşlılar öldürüldü. Həmin günlərin foto şəkilləri, video görüntüləri hələ də durur. Mənim ailəm də daxil olmaqla, bir milyondan artıq insan öz torpaqlarından çıxmağa məcbur oldu. Həmin illərdə ulu öndər Heydər Əliyevin səriştəli siyasəti nəticəsində atəşkəs imzalandı. Bu isə ordumuzun formalaşmasına imkan verdi. Artıq bu gün ordumuz ən müasir ordular sırasında yer alır."

Uzun yola söhbəti ilə körpü salan zabit deyir ki, ordumuzun gücü, qüdrəti daim artır. "Bu gün zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tez-tez cəbhə bölgəsinə səfər etməsi, yurdumuzun keşiyində dayanan, onu göz bəbəyi kimi qoruyan əsgərlərlə görüşməsi, onların xidmətini layiqincə qiymətləndirməsi hər kəsin döyüş

Məğlub olan düşmən gücdən-qüvvətdən düşüb, yenidən atəşkəs rejimini pozmağa cürət edə bilmir. Çünki qarşısında dayanan cəsur, igid Azərbaycan əsgərindən qorxur.

Post başçısı gizir Cavidan Hüseynov ötən gün ərzində heç bir hadisənin baş vermədiyini bildirir. Səngərdə dayanıb erməni işğalçılarının mövqelərini nəzarətdə saxlayan əsgərlərin üz-gözündən qəhrəmanlıq hiss olunur. Əmin olursan ki, onlar düşmən üstünə atılıb rəşadət və hünər göstərməyə hər an hazırdırlar. Əsgərlərdən birinə yaxınlaşıb tanış oluram. Qusar rayonundan ordu sıralarına çağırılmış əsgər Nəriman Musayev 7 aydır hərbi xidmətdədir.

- Vətənə xidmət etmək hər birimizin həm vətəndaşlıq, həm də övladlıq borcudur, - əsgər deyir. - Qürur duyuram ki, bu müqəddəs borcu düşmənlə üzbəüz mövqelərdə yerinə yetirirəm. Daim düşmən mövqelərini müşahidə altında saxlayıram.

Bir anlıq mən də müşahidə qurğusundan qarşı tərəfə baxıram. Düşmənə olan nifrətim daha da artır. Ali Baş Komanni orduya bağlayıb.

- İlk vaxtlar darıxa bilərsən, amma zaman keçdikcə yoldaşlarından ayrılmaq istəmirsən. Burada olanda doğmalarının güvəndə olduğuna əmin olursan. Nə təhlükə gözlənə bilərsə, biz onu dəf etməyə hazırıq. Yetər ki, ana Vətənimə heç bir xətər olmasın, - Feruz deyir.

Torpaqlarımızın keşiyində dayanan əsgərlərdən Zülfüqar Hüseynli, Amin Əmiralıyev, Orxan Fərhadov, Ruslan Bağırov və başqaları ilə də həmsöhbət oluram. Onların hər sözündən, söhbətindən də vətənpərvərlik ruhu hiss edilir.

Əsgərlərlə söhbətim yenə də məndə xoş duyğular oyadır. Bir daha əmin oluram ki, Vətən qarşısında vətəndaşlıq məsuliyyətini dərindən hiss edən gənclərimiz yurdumuzun keşiyində ayıq-sayıq dayanırlar. Onlar torpaqlarımızın hər qarışı uğrunda döyüşə hazırdırlar.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

---

*Nəsillərə nümunə*

# "Vətən sevgisindən güclü duyğu yoxdur!"

*İkinci Dünya müharibəsində faşizmə qarşı dünyanın digər azadlıqsevər xalqları ilə çiyin-çiyinə Azərbaycan xalqı da vuruşub. İllər keçsə də, bu ölüm-dirim müharibəsinin ağrı-acıları unudulmayıb, unudulmayacaq.*



Böyük Vətən müharibəsi veteranı 95 yaşlı Seyfulla Baxışovla söhbətləşərkən onlara xüsusi diqqət və hörmət göstərən ümummilli liderimiz Heydər Əliyevin "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur" kəlamını xatırlayıram.

Həmsöhbətim Şamaxı rayonunun Dəmirçi kəndində anadan olub. Böyük Vətən müharibəsi başlayanda Azərbaycanın yüz minlərlə igid oğlu kimi Seyfulla müəllim də "Müsəlləh əsgərəm mən də bu gündən" deyərək döyüşlərə yollanır. Öncə hərbi məktəbə göndərilir və burada ona çavuş hərbi rütbəsi verilir. Hərbi təhsilini başa vurduqdan sonra 840-cı atıcı artilleriya alayında bölük komandiri vəzifəsinə təyin olunur. Qafqazda, Rusiyada, Ukraynada gedən bir sıra hərbi əməliyyatlarda və Moskva, Sevastopol şəhərlərinin müdafiəsində iştirak edir.

O günləri bir an belə unutmadığını deyən veteran döyüşçü İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaralardan ürək ağrısıyla danışanda xəyalən yenidən o illərə qayıdırdı. "Keçmiş SSRİ-nin elə bir ucqar məkanı qalmadı ki, bu dəhşətli müharibə həmin yerlərə aclıq, müsibət, göz yaşları gətirməsin. O dövrdə Vətən anlayışı milliyyətindən, dilindən, yaşadığı yerdən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs idi."

Ömrünün müdrik çağlarını yaşayan ağsaqqal onlara göstərilən dövlət qayğısından da söhbət açdı. Ulu Öndərimizin onlara daim qayğı göstərdiyini xatırlayaraq müasir dövrdə də bu siyasətin layiqincə davam etdirildiyini bildirdi.

Dövlət tərəfindən mənzil və maşınla təmin olunan Seyfulla Baxışov qeyd etdi ki, müdrik siyasətçi Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev onlarla daim maraqlanır.

Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovla birlikdə Dnepr çayı ətrafında gedən döyüşlərdə iştirak etməsindən qürurla söz açanda bir anlıq o zamana səyahət edir. Dəhşətli, qanlı-qadalı döyüşlərdə şücaət göstərərək öz millətinin şərəfini uca tutan müharibə veteranı indi də olub-keçənləri yaxşı xatırlayır. "Düşmən təpədən-dırnağa kimi silahlanmışdı, canlı qüvvəsi də bizdən çox idi. Amma əsgərlərimizin vətənpərvərlik hissi, əzmkarlıq və cəsarəti, "Vətən uğrunda" deyərək hücuma keçmələri döyüşün müqəddəratını həll edirdi. Minbir əziyyətlə neçə dəfə bataqlıqdan düşmən arxasına keçməyimizi hələ də unutmamışam..."

Müharibə veteranı həmin illərdə sevginin nələrə qadir olduğunu, Vətən sevgisindən güclü olan heç bir hissi duymadığını dilə gətirdi"... Günlərlə ac qalırdıq. Yeməyə bir şey tapmırdıq. Səhər su qaynadıb içirdik. Qara çörək verirdilər, onu da qramla... Lakin bütün bunlar daxilimizdəki mübarizə əzmini qıra bilmirdi. Vətən dardaydı. Hər bir kəs Vətən uğrunda canından keçməyə hazır idi".

Bu gün veteranlarımızın ömür yolu gənc nəslin mənəvi-əxlaqi və vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm örnəkdir. Müsahibim tədbirlərdə iştirakından, təhsil ocaqlarına dəvət olunmasından, tələbə və məktəblilərlə keçirilən maraqlı görüşlərindən də söz açdı. "Vətənpərvərlik mövzusunda gənc nəslin nümayəndələri ilə söhbətlərimiz çox olur. Onlara Vətəni, milləti hər şeydən uca tutmağı aşılayırıq. Ermənilər alman faşistlərindən də qəddardırlar. Xocalı faciəsini xatırlayanda insanın damarda qanı donur. Uşaqlara, qadına, qocaya, xəstələrə aman verməyənlər insanlığını itirən kəslərdir... Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra xalqımız dünyada tanındı, ordumuz möhkəmləndi. Hazırda çox güclü ordumuz var. Aprel döyüşləri ordumuzun qüdrətini dünyaya nümayiş etdirdi. Ən böyük arzum qələbəmizin sevincini yaşamaqdır. Biz də cavanlarla birgə düşmənləri torpaqlarımızdan qovub çıxarmağa hazırıq."

Bir əsrlik ömür sahibi ilə söhbətdən sonra bir daha əmin oldu ki, onların xalq, dövlət yolunda fədakar əməyi gənc nəsil üçün ən dəyərli örnəkdir.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Bütün Azərbaycan Çingizlə fəxr edir"

Ali Baş Komandan İlham ƏLİYEV:

*Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir.*



...Tovuzda uzaqlarda görünən dağların daş sinəsini silib uzaqlaşan yellər yollara səpələnir. Göy üzü gah tutulur, gah açılır. Tutulanda könül küsdürən, açılanda könül xoşluğuna dönən yellər ayaq saxlayanların duruşuna söykənir, tələsənlərin yerişinə. Ayaq saxlayanların da, tələsənlərin də könlü "Misri"yə köklənib; bir qəhrəmanlıq bu saz havasına təzə xallar, güllər gətirib. "Misri" ötən ilin aprelindən bu yana daha əzəmətlə, daha coşquyla ifa olunur, dinləyənlər daha böyük coşquyla dinləyir.

İki duyğu qoşa yaşanılır: kövrəklik, qürur. Uşaqların baxışlarında gördüyüm, qürurlandığım qürur bu gün çox möhtəşəmdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adının əbədiləşdirilməsi üçün silsilə tədbirlər keçirilir.

Tədbir iştirakçıları böyük tarixi şəxsiyyət Heydər Əliyevin abidəsi önünə tər çiçəklər qoyur, xatirəsini yad edirlər...

Dağlardan boz dumanı dağıdan yel əsir. Tovuzun **Şəhidlər xiyabanında** qonaqların gəlişinin intizarında olan hərbi səhra paltarlı uşaqların hərdən göy üzünə yayılan baxışlarının bir umacağı var: yağış yağmasın. Onsuz da hər gün anılan şəhidlərin bu gün geniş miqyasda anılmasının iştirakçısı olmaq üçün gərənlər ayaq saxlayır..

Hərbi səhra geyimli azyaşlı uşaqları görüncə, sinəm ürəyimə darlıq edir: onlar Azərbaycanın sabahlarının vətəndaşlarıdı. Nə gözəl ruhda böyüyürlər!

Bu uşaqlar zaman-zaman xatırlayacaq ki, adı Tovuzun tarixinə yazılmış bir qəhrəmanın adına ad olan günün, təntənənin iştirakçısı olublar...

Uşaqlar Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyevlə, hərbi birləşmənin komandanlığı ilə, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun atası Salman Qurbanovla, rayon icra hakimiyyətinin başçısı ilə... birlikdə şəhidlərin məzarı üzərinə tər çiçəklər düzürlər: "Qoruduğunuz, toxunulmazlığına can əsirgəmədiyiniz torpaqları biz qoruyacağıq!..". Şəhidlərin daş baxışları dil açsaydı, görəsən, uşaqlara nə deyərdi, nələr deyərdi?..

Çingiz Qurbanov Qusarda doğulmuşdu, Texniki Universitetdə təhsil almışdı, Tovuzda xidmət edirdi. Vətəni burada qoruyurdu. Belə bir əsgər haqqında komandirlərindən savayı kimsənin məlumatı yoxuydu. İndi onu bütün məmləkət tanıyır. Bu uşaqlar da tanıyır. Qusarda doğulub Tovuzda şəhid olan bir cavanın şücaəti, qəhrəmanlığı bu uşaqlar üçün də örnək olacaq...

4-5 yaşlı uşağın baxışları məni özünə çəkir. Turaldı. Hansı maraqdansa, soruşuram: "Böyüyəndə kim olacaqsan?". Baxışlarını davamlı baxışlarımdan yayındırıb naməlumluğa baxır. Qətiyyətlə, "Çingiz olacam!" - deyir. Necə qürurlanmayasan? Bu yaşda uşağı necə bağrına basmayasan? "Kaş bu kəlmələri Çingizin ruhu da eşidəydi..." - düşünürəm...



Əsən yel şahlıq etmək üçün dağlara tələsir...

Qəhrəmanın adının əbədiləşdirilməsi tədbiri **hərbi hissədə** davam edir. Qərargahın qarşısında "Şəhid milli qəhrəmanlarımız" abidəsinin açılışı olacaq. Hərbi hissənin üç milli qəhrəmanını yanaşı yaşadacaq bu abidə.




Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani həmişə 22 yaşında anılacaq Çingiz Qurbanov haqqında danışır: tələbiliyindən, hərbi xidmətə çağırılacağı günü intizarla gözləməsindən, ön xətdə xidmətdən qürurlandığından, Vətən sevgisindən, bu sevgi naminə döyüşündən, döyüşdə şücaətindən, qəhrəmanlığından,... danışır. Əsgərlərin baxışlarında çırpınan qüruru, bu qürura söykənikli ehtiramı, bir ələim həsədi duymaq çətin deyil...

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxışında ordumuzun döyüş və mənəvi hazırlığından, ötən ilin aprel döyüşlərindən, şəxsi heyətin Ali Baş Komandanın hər əmrinə hazır olmasından, şücaətin, qəhrəmanlığın mənəvi-psixoloji hazırlığın səviyyəsi ilə bağlılığından danışaraq qeyd edir ki, çağırışçı hərbi xidmətə müəyyən mənəvi hazırlıqla gəlir. Hərbi xidmətdə bu hazırlıq məqsədyönlü şəkildə dərinləşdirilir. Çingiz Qurbanov təsdiqlədi ki, Azərbaycan əsgəri ərazi bütövlüyümüz naminə şəhidliyə də getməyi bacarır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ona Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verilməsi ölkə başçısının əsgərə, əsgərin timsalında Silahlı Qüvvələrimizə böyük ehtiramıdır...

Əsən yel şahlıq etmək üçün dağlara tələsir. Döyüş növbəsi aparan Çingizlərin yanına...

Tovuz rayonunun İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov Qusarda doğulub Tovuzda şəhid olan Çingiz Qurbanovun qəhrəmanlığıyla, şücaətiylə tovuzluların da əzizi olduğunu, xatirəsinin əbədiləşdirilməsi üçün rayonun Ağbulaq kəndinin mərkəzi küçəsinə rayon İcra Hakimiyyətinin sərəncamı ilə Çingiz Qurbanovun adı verildiyini bildirir...

Müdafiə nazirinin əmrinə əsasən keçirilən silsilə tədbirlər sırasına bir tədbir də əlavə olunur. **Ağbulaq kəndində** Salman Qurbanovun qüruru seziləndir. Vaxtaşırı bura gələcək. İlk ünvan göstəricisinin yanında ayaq saxlayacaq, baxacaq, qəlbindən keçənləri ifadə edə bilməyəcək; Çingizsiz Çingizli ayların, illərin əbədiyyətəcən yaşayacağına əminliklə baxacaq, kiminsə "Çingizin atasıdı..." kəlmələrinin işığına boylanacaq...

Ağbulaq kəndindən üzü yüksəkliyə doğru uzanan yolun sağında toplaşanların baxışlarında gördüklərim hərbi hissədə əsgərlərin baxışlarında gördüklərimin eynidi. "Bu küçənin başlanğıcı bəlli. Nəhayəti ürəklərdi..." - düşünürəm. Düşüncələrim əllərində güllər, çiçəklər, bayraqlar tutmuş məktəblilərin baxışlarının doğmalığına sarılır. Bu mehr, bu ülfət bir qəhrəmana ad olan ehtiramın işığına tamsınır...

Abdulla Qurbani bir anlığa toplaşanlara, sonra Salman Qurbanova baxır. Bu sözsüz mükalimələşmənin mətləbini duymaq çətin deyil; Abdulla Qurbaninin baxışları belə oğul böyüdən ataya ümumxalq sevgisinin tərcümanıdı, atanın baxışları ölkə Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə, rayon ictimaiyyətinə minnətdarlıqdı. "Oğul var evdən gedir, oğul var eldən gedir..." - bir ananın pıçıltısını mən də eşidirəm...

"Biz nə vaxtsa dünyadan köçəcəyik. Çingiz Qurbanov bu kəndin daimi sakini olacaq" - kənd ağsaqqalı Cəlal Həsənov çıxışında belə deyir. "Biz müəllimlər təkcə vəzifə borcumuzu deyil, vətəndaşlıq borcumuzu da yerinə yetirməliyik. Hər şagirdin Çingiz ruhunda böyüməsinə çalışmalıyıq..." - kənd məktəbinin müəllimi Şəfiqə Əliyeva çıxışında belə deyir...

Evin divarına "Çingiz Qurbanov küçəsi" lövhəciyi vurulur. Çingiz Ağbulaq kəndində "Çingiz Qurbanov küçəsi"ndə böyük ehtiramla anılır.

Abdulla Qurbaninin təklifi ilə şeir səslənir. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin də könlünə yatan "Azərbaycan" şeiri:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam,*
*məskənimsən...*

(Ardı 5-ci səhifədə)

# "Bütün Azərbaycan Çingizlə fəxr edir"

(Əvvəli 4-cü səhifədə)

Ötən ilin dekabrın 29-da dünyanı heyrətləndirən vətənpərvərliklə şücaətin vəhdəti kimi bir qəhrəmanlıq doğuldu. O qəhrəmanlıq tarixə yazıldı, tarix yazdı. O qəhrəmanlıq haqqında şeirlər, məqalələr yazıldı, yazılacaq da. Hər biri şəhid qəhrəmana, şəhidliyə ehtiramın söz təsdiqidi. Şair-publisist Abdulla Qurbaninin yazdığı "Çingiz dastanı" tamam fərqli əsərdi; tarixilik publisistika ilə, publisistika poetika ilə vəhdətdə təqdim olunub. Tədbirdə Abdulla Qurbani Ağbulaq kənd məktəbinin direktoruna bu kitablardan hədiyyə edir. "Əllərdə, könüllərdə və dillərdə qərar tutan" bayraqlarımız elə əzəmətlə dalğalanır ki!..

Müəllim Şəfiqə Əliyevanın duyğusallıqla dediyi "Könlümün sevgili məhbubu mənim..." misrası əsən yellərə qarışır; yellər əsə-əsə qarşıdakı meşə zolağına deyil, yüksəkliyə tələsir. O yüksəklik ucalıqdı. Həm coğrafi, həm də mənəvi ucalıq.

Atanın baxışları gözləri qəhərdən dolub-boşalan bir yeniyetmədən üzülmür; baxışında oğlunun baxışının, duruşunda oğlunun duruşunun eynini görüb? Pıçıltıyla "Təki Vətən yaşasın!" - deyir. Xatırlayıram ki, Çingizin dəfnində də belə demişdi. Qəhərini onda da boğa bilmişdi, indi də boğur. Oğlunun ruhunu incitmək istəmir...



Əsən yel şahlıq etmək üçün dağlara tələsir. Döyüş növbəsi aparan Çingizlərin yanına. 2016-cı ilin 29 dekabrınacan əsgər Çingiz Qurbanovun xidmət etdiyi mövqeyə. Müdafiə naziri Zakir Həsənovun əmriylə mövqeyə Çingiz Qurbanovun adı veriləcək, mövqeyə lövhə vurulacaq. İlk şəhiddir ki, bir vaxtlar xidmət etdiyi mövqe onun adını daşıyacaq: **Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına post.**

...Tanış cığırla tanış mövqeyə yaxınlaşmaqdayıq. Bura ötən il gəlmişdim. Əsgərlərin söhbəti, bir ürək tutumunca Vətən sevgisi ürəyimi telləndirmişdi. Bir daha əmin olmuşdum ki, həqiqətən "Vətən - gözdü, biz - kirpik", həqiqətən "Gözümün keşiyini çəkirik".



Əsgərlərimizin arasında sözüm də əsgərləşmişdi, özüm də...

Bir az istidi, bir az bürkü. Arada xırdaca meh əsir. İlk baxışda bəstə görünən təpəyə tələsirik...

Göy üzündə görünən bir topa bulud mövqeyə aparan yolu kölgələndirib. "Bu hikmət göy üzünün bu tərəflərə ehtiramıdı..." - düşünürəm...

Bu da mövqe...

Əsgər Çingiz Qurbanov burada xidmət edirdi...

Çingizin daş-divardan dikələn baxışları qarşılayır bizi. Ata bir anlığa dayanır. Baxır. Yaxınlaşır. Bir vaxtlar qoşa qolları oğlunun kürəyində çarpazlaşardı. İndi o qollar daşdivarı bağrına basır...

...Könlündən əsən yellərə, daşan sellərə qarışmaq keçənlərin səngərdaşı, səngər qardaşı olan əsgər Çingiz Qurbanov da ötən ilin dekabrınacan daş döşənmiş bu cığırla posta gedirdi. Mövqe onun, o, mövqenin səngəri olurdu. O da digər səngərdaşları kimi düşmənə bu səmtə addım atmağa imkan verməzdi. Səngərin həndəvərlərini Vətənin bir parçası kimi deyil, bütöv Vətən kimi qoruyurdular.

Ötən il dekabrın 29-da düşmənin təxribatlarının qarşısını aldıqdan sonra bu mövqedən getmişdi düşmənin üstünə...

4 düşməni öldürmüşdü...

Döyüşdə şəhid olmuşdu...

Ata oğlunun keçdiyi cığırla irəliləyir. Son dəfə baxdığı səmtə baxmaq istəyir. Oğlunun gözləriylə baxmaq istəyir. Bir azdan deyəcək ki, icazə versəydilər, torpaqlarımız işğaldan azad edilənəcən oğlumun əvəzindən dayanardım burada, onun xidmət yoldaşlarına yoldaş olardım, onun xidmətini davam etdirərdim...

Ata oğlunun keçib getdiyi cığırları davamlı baxışlarla gözlərinə yığır...

Harada vurulduğunu göstərirlər ataya...

Komandirin əli atanın çiyninə enir...

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adının əbədiləşdirilməsi üçün postun girişinə lövhə vurulub: "Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov postu"...

Əsgərlərin baxışlarında nələr görürəm? - mehr-ülfət, Vətənə, torpağa, yoldaşlığa sədaqət. O baxışlarda "Mən Azərbaycan əsgəriyəm!" qürurunu görürəm. Mənə elə gəlir ki, bu baxışlar dil açsaydı, Vətəni Çingiz kimi sevirik deyərdi, Çingizin qoruduğu kimi qoruyuruq deyərdi. Hamı duyur ki, bu postda döyüş növbəsi aparanlar Çingizi yanında hiss edəcək. "Çingiz əbədiyyətin əsgəridi" - düşünürəm...

Döyüş mövqeyində Çingiz Qurbanovun xatirə guşəsi yaradılıb.

Çingizin çarpayısı...

Çingizin şəxsi əşyaları...

Mübariz İbrahimovun qəhrəmanlığı Mübarizləşmə təyini yaratdı. Çingiz Qurbanovun qəhrəmanlığı Çingizləşmə...

Beş-on addım aralıda dağ çiçəkləri görünür. Çingiz o çiçəkləri görə bilmədi, dərə bilmədi. Payızda gəldi, qışda şəhid oldu. Görə bilmədiyi güllər adını daşıyan postun yan-yörəsindən də boy göstərir...

...Bir vaxtlar oğlunun ayaq izləri düşmüş cığırla irəliləmək atanı kövrəldib. "Mənim oğlum idin, indi Vətənin oğlusan. Bir qardaşın vardı, indi minlərlə qardaşın var..." - atanın baxışları obeliskdən üzülmür; həmin baxışları, həmin incə təbəssümdü. Ata o qaynar baxışlara, o munis təbəssümə sarı əyilir: "Vətən üçün yaşanılan ömür dəyərli ömürdü, oğul. Sən dəyərli ömür yaşadın...".

Ata oğlunu son məqamlarda görmüş əsgərlərin - Zamin Qasımzadənin, Emin Cəfərovun, Vəfadar Tahirlinin əhatəsindədi. Dördü də obeliskə baxır. Ata oğlunun xidmət yoldaşlarından nəsə soruşmaq istəyir, soruşa bilmir. Ucalıq məqamında zamana dayanmaq hökmü verə bilməyəcəyinə təəssüflənir. "Oğlumu son görən gözlərinizə doyunca baxım..." - baxışları sanki belə deyir. "Sənə Çingizin gözləriylə baxırıq, ata..." - əsgərlərin baxışları ataya sanki belə deyir.

Bu səssiz mükalimələşmənin bir əli qürurun əlindədi, bir əli kövrəkliyin. "Çingiz aprel döyüşlərində şəhid olanlardan, onların qəhrəmanlığından danışardı. "Kaş o vaxtlar biz də xidmətdə olaydıq..." - deyərdi - Vəfadar belə deyir...




Dördünün də qəhərinin rəngi seziləndi. Çingizsizlik rəngli qəhərdi...

Ata postdan enmək istəmir, enə bilmir. Bir-iki addım atıb dayanır. Geri qayıdır. Bir vaxtlar oğlunun müşahidə apardığı yerdə dayanır. "Səni əvəz edirəm, oğul. İcazə versələr, döyüşdə də əvəz edərəm", - deyir elə bil. Yumruqları düyünlənir...

Bir dəstə dağ çiçəyi verirlər ataya. Bu çiçəklər Çingizin qəbrinin üstünə qoyulacaq...

Bir dəsmal arası torpaq götürür ata. Çingizin qəbrinin torpağına qarışacaq bu torpaq...

Mövqedən ayrılmaq çətindi; ayaq gedir, ürək saxlayır...

Dönüb baxır. Yenə gələcəm deyir sanki...

...Hərbi hissədəyik. Müdafiə nazirinin əmrinə əsasən, **Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı bölüyün şəxsi heyətinin siyahısında əbədiyyən səslənəcək.**

Nümunəvi axşam yoxlanışı hamını duyğulandırır. Bölüyün baş çavuşu Çingiz Qurbanovun adını oxuyanda "2016-cı il dekabrın 29-da Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olub. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə ona ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib". Bir anlığa sükut çökür. Müqəddəs sükutdu. Və... əsgərlərin hamısı "Çingizləşməyə hazırıq!" - deyir. Kəlmələr əsən yelləri də yolundan etmək qüdrətindədi...

...Ata oğluna bu miqyasda ehtirama görə Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə nazirinə, rayonun rəhbərliyinə təşəkkürünü bildirir...

...Çingiz Qurbanov qəhrəmanlığıyla tarix yazdı...

Müdafiə nazirinin Çingiz Qurbanovun adının əbədiləşdirilməsi haqqında əmri icra olundu. Bu da tarixdi...

...Ürəkləri coşduran "Misri" dönməz bir haraya dönür: əsgər Çingiz Qurbanov Azərbaycanın əbədiyyət əsgəridir!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *1918-1920-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyət. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.*

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

### *Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

Azərbaycan öz müstəqilliyini elan etmə ərəfəsində Rusiya imperiyasının tərkibində idi. Rusiyanın 1914-cü ildə Birinci Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət müvəqqəti hökumətin əlinə keçdi.

1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edilmişdilər.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif sahələrində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacınski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə kütləviliyini artıran şura Bakıda siyasi üstünlüyə malik idi.

Milli hərəkatın fəallarının xalqın milli hüquqlarının təmin edilməsi yolunda irəli sürdükləri tələblər milli-siyasi idealların təcəssümü kimi cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda ümummilli mənafeləri əks etdirən strateji vəzifələrin həllinə istiqamətləndirilmişdi.

Rusiyada 1917-ci il oktyabr silahlı inqilabından sonra Zaqafqaziya Xüsusi Komitəsi fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məhəmməd Yusif Cəfərov, Xudat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edildi.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yarandığı ilk gündən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

### *Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə canişin sarayında Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26-sının iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. İstiqlal bəyannaməsində göstərilirdi ki:

1. Azərbaycan suveren dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin hökumət forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti hamı ilə, xususən də qonşu millətlər və dövlətlərlə dostluq əlaqələri yaratmaq niyyətindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti etnik mənşəyindən, dilindən, sinfindən, peşəsindən, cinsindən asılı olmayaraq sərhədləri daxilində bütün vətəndaşlara tam mülki və siyasi hüquqlar üçün təminat verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisində məskunlaşmış bütün millətlərin azad inkişafını təmin edir.

Milli Şurada "Müsavat", "Bitərəf Demokratlar qrupu", "Müsəlman Sosialist bloku", "Sosial-Demokratik Hümmət qrupu" və "İttihad" partiyaları təmsil olunurdu.

Milli Şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətinin təşkil edilməsi Fətəli Xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi.

Mayın 30-da Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqramla məlumat verildi.

İyunun 4-də Azərbaycanın nümayəndə heyəti Batumda Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzaladı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq Ənvər Paşa hökuməti Azərbaycana 2 mln. türk lirəsi ayırdı.

1918-ci il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Milli Şura müvəqqəti hökuməti təşkil etməyi F.Xoyskiyə tapşırdı.

İyunun 17-də Gəncədə F.Xoyskinin rəhbərliyi ilə ikinci hökumət təşkil edildi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan, əsasən, erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyunun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı şəhərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox Birinci Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı qüvvələrinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci ilin 30 oktyabr Mudros müqaviləsinə görə məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya girməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü. Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Parlamentin tərkibi 120 deputatdan ibarət idi. Parlamentdə azərbaycanlılara 80, ermənilərə 21, ruslara 10, yəhudi, alman, gürcü və polyak icmalarının hərəsinə 1, həmkarlar İttifaqı Şurası və Neft sənayeçiləri İttifaqı üçün 3 yer ayrılmışdı. Parlamentin ilk iclasında F.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. Hökumətin təşkili F.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi.

Hökumətin Gəncədə fəaliyyəti dövründə 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan olunması haqqında fərman imzalandı. İyunun 27-də üzərində ağ rəngli aypara və səkkiz guşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu. 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Sentyabrın 1-də hərbi nazirliyin yaradılması haqqında qərar qəbul edildi. 1920-ci ilin yanvarında artıq 30 min nəfər piyada və 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

Təhsil sahəsində də mühüm nailiyyətlər qazanıldı. 1919-cu il sentyabrın 1-də Bakı Unversitetinin əsası qoyuldu. Orta məktəblərin milliləşdirilməsi işinə başlandı.

### *Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri*

Azərbaycan beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhədinə cəmləşdirərək işğala hazırlaşırdılar.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycanın hökumətini devirmək üçün Qarabağda və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər.

1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkənin müdafiəsi barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI Qırmızı Ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI Qırmızı Ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu.

Aprel işğalı nəticəsində Azərbaycanda qurulan bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verildi: "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti əsas götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Emənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət dövlətçiliyimizi təhlükə altına qoymuşdu. Xalqın təkidi ilə görkəmli dövlət xadimi, böyük dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda, həmçinin, ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkirləri, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Şahinlərin birinciliyi başa çatdı

*Ümummilli lider Heydər Əliyevin ad günündə C.Naxçıvanski adına Hərbi Liseydə respublika məktəbliləri arasında "Şahin" hərbi-idman oyunlarının final mərhələsi keçirildi. Hərbi təhsil ocağı bayramsayağı bəzədilmişdi.*





"Şahin" hərbi-idman oyunlarının final mərhələsində iştirak edəcək komandalar sıra meydanında düzülmüşdü. Məktəblilərin üzündə sevinclə yanaşı, həyəcan da var idi. Hamı intizarla yarışın başlayacağı anı gözləyirdi.

Əvvəlcə "Şahin"lərin yarış münasibəti ilə düzülməsi barədə C.Naxçıvanski adına Hərbi Liseyin rəisinə məruzə olundu. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himni ni oxudular.

C.Naxçıvanski adına Hərbi Liseyin rəis əvəzi polkovnik Elman Namazov çıxışında mərasim iştirakçılarını Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayaraq bildirdi ki, hər il məktəblilər arasında "Şahin" hərbi-idman oyunlarının final mərhələsi bu gün keçirilir. "Uzun illərdir Cəmşid Naxçıvanski adına Hərbi Lisey belə mötəbər yarışa ev sahibliyi edir. Məktəblilər "Şahin" hərbi-idman oyunlarında böyük fəallıq göstərirlər. İnanıram ki, bugünkü birincilik də gərgin mübarizə şəraitində keçəcək."

Gənclərin vətənpərvər, xalqa və dövlətə sədaqət ruhunda tərbiyə olunmasında, gələcək hərbi xidmətə hazırlanmasında belə tədbirlərin əhəmiyyətini qeyd edən natiq vurğuladı ki, "Şahin" hərbi-idman oyunlarının respublika final mərhələsinin ümummilli lider Heydər Əliyevin doğum günündə keçirilməsi artıq ənənəyə çevrilib.

- Əziz "Şahin"lər! Bu gün ölkənin vətəndaşı kimi hər birimizin üzərinə böyük vəzifələr düşür, - deyə polkovnik məktəbli gənclərlə öz tövsiyələrini, arzularını bölüşdü. - "Şahin" hərbi-idman oyunlarında hamımızda mübarizlik coşqusu var. Komandalar həmişə olduğu kimi, bu dəfə də yarışlara qələbə əzmi ilə qatılıblar. Qələbə isə asanlıqla qazanılmır. Bunun üçün maneələri dəf etməli, mübarizə meydanından uğurla keçməlisən. Mübarizədə isə qələbə sevincini həmişə hazırlığı yüksək olanlar yaşayırlar. Bütün komanda üzvlərinə uğurlar arzulayıram.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini general-mayor Novruzəli Orucov və başqaları da "Şahin"lərə uğurlar arzuladılar.



Sonra məktəblilər C.Naxçıvanski adına Hərbi Liseyin hərbi orkestrinin ifa etdiyi hərbi marşların sədaları altında təntənə ilə tribunanın önündən keçir, peşəkarlıqlarını mərasim iştirakçılarına nümayiş etdirdilər. Hakimlər isə onların hərəkətlərinə diqqət yetirir və müvafiq balla qiymətləndirirdilər.

Çoxlarının böyük marağına səbəb olan təntənəli keçid başa çatdıqdan sonra komandaların sıra hazırlıqları yoxlanıldı. Kapitanlar komanda üzvlərinə müxtəlif əmrlər verirdilər. Onlarsa cəld hərəkətlə tapşırığı yerinə yetirirdilər.

"Şahin" hərbi-idman oyunlarının final mərhələsinə 17 komanda qatılmışdı. Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov söhbət zamanı oyunlar barədə qısaca məlumat verdi. Bildirdi ki, "Şahin" hərbi-idman oyunları 1996-cı ildən keçirilir. Komandaların heyəti 14 nəfərdən ibarətdir. Onlardan 10 nəfəri oğlan, 4 nəfəri isə qızdır. Yarışlar 8 mərhələdən ibarətdir. Komandalar finalda iştirak edənə qədər zona birinciliklərində iştirak ediblər. Qalib gələn komandalar bu mərhələyə qatılıblar.

Sıra hazırlığı mərhələsi başa çatdıqdan sonra məktəblilər avtomatın sökülüb-yığılması, patron darağının doldurulub-boşaldılması və tüfəngdən hədəfə atəş açılması məntəqəsinə üz tutdular.

Komanda üzvləri atış çalışmasını yerinə yetirdikdən sonra kəndir vasitəsilə təhlükəli zolağın dəf edilməsi, kəndirin köməkliyi ilə hündürlüyə dırmanma və enmə, tel əngəlinin dəf edilməsi, çadır qurulması, minalanmış sahəyə qumbara atılması, mülki müdafiə və yaralının zəhərli zonadan çıxarılması və başqa mərhələləri dəf etməyə başladılar. Mərhələlərdən keçmək məktəblilərdə böyük maraq oyadırdı. Hər kəs komandasının qalib olması üçün üzərinə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirməyə çalışırdı...

Yarışda iştirak edən məktəblilərdən Allahverdi Səmədov, Nübar Sadıqova, Hikmət Həşimov, Oktay İdrisov, Gülşən İsrafilova və başqaları ilə həmsöhbət oldum. Onlar belə bir mötəbər yarışda iştirak etdiklərinə görə qürur hissi keçirdiklərini bildirdilər.

Qaliblər elan olundu. "Şahin" hərbi-idman oyunlarının final mərhələsinin qalibi adını Bakının Nizami rayonunun komandası qazandı. İkinci yerə Kürdəmir, üçüncü yerə Zərdab rayonunun komandaları yüksəldi.

Qalib komandaların mükafatlandırılması üçün təntənəli mərasim keçirildi. Birinci yerin sahibinə kubok, ikinci və üçüncü yerlərə çıxmış komandalara isə fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# "Silahlı Qüvvələrimiz düşmənin yalnız hərbi təyinatlı obyektlərinə qarşı cavab tədbirləri görür"

*Azərbaycan Silahlı Qüvvələri düşmənin yalnız hərbi güc, vasitə və digər hərbi təyinatlı obyektlərinə qarşı cavab tədbirləri görür.*

Bunu Ermənistan kütləvi informasiya vasitələrində yayılan xəbərlərdə cəbhə xəttində bu ölkənin "Şant" televiziya şirkətinin operatorunun guya Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən açılan atəş nəticəsində yaralanması ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

"Ermənistan hərbi texnikasının kamuflyaj rənginə uyğun maskalanmış, üzərində media və ya hər hansı mülki təşkilata aid heç bir fərqləndirici nişanı olmayan, "Şant" televiziyasına məxsus olduğu iddia edilən nəqliyyat vasitəsindən mövqelərimiz istiqamətində açılan atəşə qarşı bölmələrimiz tərəfindən müvafiq cavab tədbirləri görülüb", - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

# Xəbərlər: hadisələr, faktlar

## Ağ ev Tramp-Ərdoğan görüşünün vaxtını açıqlayıb



Mayın 16-da ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda Türkiyənin lideri Rəcəb Tayyib Ərdoğanı qəbul edəcək. Bu barədə Ağ evin mətbuat katibi Şon Spayser məlumat verib.

Spayserin sözlərinə görə, liderlər görüş zamanı qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi, həmçinin terrorun bütün növlərinə qarşı mübarizədə əməkdaşlığın inkişafı yollarını müzakirə edəcəklər.

## İsveçrədə günəş batareyası ilə işləyən ilk təyyarə sınaqdan keçirilib



"SolarStratos" şirkəti günəş enerjisi ilə işləyən təyyarənin İsveçrədə ilk sınaq buraxılışını həyata keçirib.

Təyyarə 300 metr hündürlükdə yeddi dəqiqə qalıb. Bu, tarixdə yeni addımdır, ekoloji cəhətdən təhlükəsiz uçuş aparatı 25 min metr yüksəkliyə qalxa bilib.

Təyyarəçi Rafael Domian deyib ki, bu aparat kosmosun geniş sahələrini öyrənməyə imkan verəcək. Belə ki, yanacaqla işləyən və atmosferi çirkləndirən bütün analoqları əvəzləyəcək.

## Pentaqonun YPG-yə silah verməsi Türkiyənin sərt reaksiyasına səbəb olub



YPG təşkilatına ağır silah verilməsi məsələsinə münasibət bildirən ABŞ-ın müdafiə naziri Ceyms Mattis bununla əlaqədar Ankaranın narahatlığını çözməyə çalışacaqlarını bildirib. ABŞ-ın müdafiə naziri Litvaya səfəri zamanı cənub sərhədində təhlükəsizliyi təmin etmək üçün Türkiyə ilə yaxın əlaqələr quracaqlarını deyib.

Qeyd edək ki, Tramp hökumətinin YPG-nin əsas hərbi qanadı olan "Suriya Demokratik Qüvvələri"ni silahlandırmaq qərarı Türkiyənin sərt etirazına səbəb olub. Xarici işlər naziri Mövlud Çavuşoğlu YPG-yə verilən silahların PKK-nın əlinə keçdiyini və Türkiyəyə qarşı təhlükə olduğunu qeyd edib.

## Çində baş verən zəlzələ nəticəsində onlarla bina dağılıb, 8 nəfər ölüb



Çinin Sincan Uyğur Muxtar Rayonunda baş verən zəlzələ nəticəsində azı 180 bina tam və yaxud qismən dağılıb.

Təbii fəlakət nəticəsində 8 nəfər ölüb, azı 20 nəfər xəsarət alıb. Yerli vaxtla saat 01:00-da qeydə alınan 5,5 ballıq zəlzələnin ocağı 8 km dərinlikdə yerləşib.

## Kambocada ödənişli VIP həbsxanalar tikiləcək



Kambocanın hökumət orqanları yaxşılaşdırılmış saxlanma şəraiti olan həbsxana tikəcək. Məhbuslar bu həbsxana üçün pul ödəməlidirlər.

Ödənişli həbsxanaya ilk mərhələdə 400 nəfər yerləşdiriləcək. İmkanlı məhbusların ödəməli olduğu məbləği isə tikinti kompaniyası təyin edəcək. Həbsxanaların idarə olunması üzrə yerli departamentin nümayəndəsinin sözlərinə görə, yeni təcridxanalar daha geniş kameralarla, həmçinin idman və ibadət otaqları ilə təchiz ediləcək. Dörd milyon dollara başa gələcək həbsxananın tikintisi ilə Çinin "Kunn Rekon Holdings" kompaniyası məşğul olur. Bu həbsxana 1,2 min məhbus üçün nəzərdə tutulur.

Müqaviləyə əsasən ilk bloku 2018-ci ilin ortalarında istifadəyə veriləcək həbsxananın gəlirini 45 il ərzində yerli hökumət və tikinti kompaniyası öz aralarında böləcək.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU




# Müdafiə Sənayesi Nazirliyinin müəssisələri ilə Türkiyə şirkətləri arasında niyyət protokolları imzalanıb

*Mayın 9-dan 12-dək Türkiyənin İstanbul şəhərində keçirilən və Müdafiə Sənayesi Nazirliyinin (MSN) də təmsil olunduğu "IDEF-2017" XIII Beynəlxalq müdafiə sənayesi sərgisi çərçivəsində nazirliyin Elmi Tədqiqat İnstitutu, "Optika-Mexanika" və "Cihaz" istehsalat birlikləri ilə Türkiyənin "ASELSAN" və "TUSAŞ" şirkətləri arasında müdafiə təyinatlı məmulatların birgə istehsalına dair niyyət protokolları imzalanıb.*

Azərbaycan Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, sərgi çərçivəsində nazir Yavər Camalovun nazirliyin stendini ziyarət edən Pakistanın müdafiə sənayesi federal naziri Rana Tanvir Hussain və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşləri olub. Görüşlərdə müdafiə sənayesi üzrə yeni əməkdaşlıq əlaqələrinin yaradılmasına, mövcud əlaqələrin inkişafına dair danışıqlar aparılıb və ümumi razılıqlar əldə olunub.

Müdafiə sənayesi naziri Yavər Camalovla görüşündən sonra Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin stendini ziyarət edən Türkiyənin milli müdafiə naziri Fikri Işıq nümayiş etdirilən məmulatlarla yaxından tanış olub. İki qardaş ölkənin müvafiq qurumları arasındakı konkret sahələr üzrə birgə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Fikri Işıq bu əlaqələrin davamlı olması üçün yeni sahələrin müəyyənləşdirilməsi məqsədilə aparılan danışıqların əhəmiyyətini də vurğulayıb.

ABŞ, Almaniya, Rusiya, Fransa, İngiltərə və digər inkişaf etmiş ölkələrdən 300-dək qabaqcıl şirkətin qatıldığı "IDEF-2017" sərgisində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin nümayiş etdirdiyi, yerli mütəxəssislər tərəfindən hazırlanmış "Tufan" milli zirehli maşını, "Vaşaq" snayper tüfəngi və digər məmulatlar böyük marağa səbəb olub.

Müxtəlif ölkələrin müdafiə sənayesi şirkətlərinin silah, texnika və hərbi avadanlıq istehsalı sahəsində əldə etdikləri nailiyyətlərlə tanış olmaq məqsədilə keçirilən beynəlxalq müdafiə sərgilərində son illər təmsil olunan və artıq belə tədbirlərin təşkilatçısına çevrilən Müdafiə Sənayesi Nazirliyinin qatıldığı hər bir sərgidə nümayiş etdiryi yeni nəsil məmulatlar izləyicilər tərəfindən böyük maraqla qarşılanır. Müdafiə Sənayesi Nazirliyinin təmsil olunduğu belə sərgilərdən biri də İstanbulda keçirilən "IDEF-2017" XIII Beynəlxalq müdafiə sənayesi sərgisi olub.

*Ovqat*

# "Adama hər şeydən torpaq yaxındı..."

*Nizami Aydın*



**Görünməz**

Çiçəyinə qısılmamış,
taleyinə yazılmamış
sevməzlər qızları.
Sevsən qədri bilinməz
Əsl şeirin, əsl eşqin
bircə sətri görünməz.
Görünməz
qəmli gözlərin
çiçək boyda,
göy üzü boyda
göy üzü olmağı,
görünməz!

**Monoloq**

Mənimki şeir yazmaqdı,
Ancaq...
Göyərçin tək
Ölümümlə
Yandırıb yaxa billəm
dünyanı.

Səs tək,
ulduz tək,
Dan yeri kimi
Yaşamaqdı axır...
Hələ üstəlik
Sevə də bilirəm
Mən fağır…

**Üzümü söykəyib üzünə**

Açılan yaz səhəri tək
gələcəm görüşünə.
Səsimdə səsi qalacaq
səni öpdüyüm gün
gizlicə öpüşən çiçəklərin
kipriyimdə göz yaşı…

Üzümü söykəyib üzünə
"Səni sevirəm" deyəcəm.
Səsim şeh kimi
otların, çiçəklərin
üstünə düşüncə...

"Qəlbimdəki və qələmimdəki Qarabağ" kitabında könlümə yatan şeirlərdən birinin müəllifi Nizami Salmanov idi. Oxudum - düşündüm, düşündüm - oxudum...

Gəncədəki 18 saylı orta məktəbin riyaziyyat müəllimiydi...

Zamanında mən də riyaziyyat müəllimi olmuşam. Mürəkkəb riyazi düsturların, rəqəmlər aləminin romantikasını da, fəza fiqurlarını xəyalən görmə bacarığını da şagirdlərimə mən də həvəslə aşılamışam. 90-cı illərdə ali təhsil almış şagirdlərimdən bir neçəsi Qarabağ müharibəsində iştirak etdi. Etibar Namazov Qazançı kəndində, Yaşar Göyüşov Kəlbəcərdə şəhid oldu...

İndi Nizami Aydın adına Gəncə 18 saylı orta məktəbin müəllimi Elşən Nəbiyevin qəhəri sezilən qəhərdi:

- Xocalı faciəsi Nizamini sarsıtmışdı. Bir yerdə qərar tuta bilmirdi. Qarabağa, döyüşlərə getməyi qərara almışdı. Birlikdə getdik. Yaxşı dost idi. Kaş hamı Vətəni onun kimi sevəydi. İgid döyüşçüydü...

Qarabağa, döyüşlərə gedən şagirdlərimi mən uğurlamışdım. Nizami Salmanovu (şair idi, Nizami Aydın imzasıyla dərc olunurdu. Onu sizə də bu adla tanıtmaq istərdik) şagirdləri. Şagirdlərim mənimlə sağollaşmışdı, Nizami Aydın şagirdləriylə. İndi Nizami Aydın adına Gəncə 18 saylı orta məktəbin müəllimi Afaq Novruzova həmin günü bir qədər qürurla, bir qədər qəhərlə xatırlayır:

- Nizami müəllimi məktəbin bütün şagirdləri yola salırdı. Baxışlarını şagirdlərinin baxışlarından üzmürdü, üzə bilmirdi. O baxışlar sanki "Yaxşı oxuyun" - deyirdi. "Yaxşı oxuduğunuzu eşidəndə daha ürəklə vuruşacağıq" - şagirdlərini sevən, şagirdlərinin sevdiyi müəllimin kövrəldiyini sezmək çətin deyildi...

...Almaniyada tank batalyonunda xidmət etmişdi. Bu döyüş maşınını mükəmməl öyrənmişdi. T-72 tankı üzrə kamil mütəxəssis idi. Ağlına da gəlməzdi ki, uzaq Almaniyada öyrəndikləri bir vaxtlar Vətənində gərəkli olacaq...

1992-ci ilin iyunuydu.

Ağdam istiqamətində vuruşurdu...

...Sırxavənd uğrunda döyüş gedirdi. Əməliyyat şəraiti qəflətən dəyişdi. Ermənilər əks-hücuma keçdi. Vəziyyət son dərəcədə gərginləşdi. Döyüşçülərimizin mühasirəyə düşmək təhlükəsi artmaqdaydı. Onda tankla düşmənin üstünə getdi (tankına "Tərlan" deyərdi). Ermənilər gözlənilməz (və inanılmaz!) həmlədən bir qədər çaşdı. Yaranan çaşqınlıq döyüşçülərimizin mühasirədən çıxmasına - üstün mövqeyə çəkilməsinə şərait yaratdı...

Qəflətən tanka bir mərmi düşdü. Tank alışdı...

Şəhid oldu...

Gəncədə bir məktəb var: Nizami Aydın adına 18 saylı orta məktəb. O məktəbdə təhsil alanlar (məzunlar da) Onun döyüş (ömür!) yolunu ömürlərinə köçürə-köçürə təhsil alır (məzunlar belə təhsil alıb)...

Nizami Aydın riyaziyyat müəllimiydi...

Nizami Aydın döyüşçüydü...

Nizami Aydın şairiydi...

Nizami Aydını şəxsən tanımırdım. Onu tanıyanların söhbətlərindən tanıyırdım. Adil Mirseyid Nizami Aydının istedadını səxavətlə dəyərləndirərdi. Əkbər Qoşalı, Dəyanət Osmanlı, Həmzəli İlyas onun şeirlərinin poetik dəyərindən danışar, poetik obrazlarla düşünən şair adlandırırlar...

Nizami Aydın "Öldüyüm günün səhəri" şeiri ölümə ölüm hökmü kimi oxunur. Döyüşlərə - Vətənin müdafiəsinə ümidlər qoyub gedən bədii "mən" (Nizami Aydın) üçün Vətən ucalığı var. Bu istəyə, niyyətə "Qəzan mübarək!" deyənlərin uğurlamasıyla qələbə əzmi var, şəhidlik qətiyyəti var. Və bir də şeirin ünvanlandığı insana kövrək bir müraciət var: səni öldüyüm günün səhəri qədər sevdiyimə inanacaqsan. İnsan öldüyü günün səhərini necə sevir? - bəlli deyil. Şeirin mahiyyəti, bu anlamda poetik fikir deyir ki, ömür qədər...

"Kimin umuduna" şeirində görünməyən, hiss olunan bir mətləb var: döyüşçünün düşüncələrinə tamsınan narahatlıq ötəridi. Anası yorğunluğunu üzünü oğlunun körpəliyinə söykəməklə alacaq. Yeni bədii fikir (üzün körpəliyə söykənməsi) yüksək poetik çaları ilə diqqəti çəkir. Şeirin ömrünü belə çalarlar müəyyənləşdirir...

"Ana torpağından gözəl heç nə yadıma gəlməz, dünyanın şipşirin suları, tərtəmiz göyləri anama oxşayır" deyimi ("Ən gözəl torpaq") düşündürücüdür; Ana-Vətən deyirik. Nizami Aydın Ana-torpaq deyir. Bu, eyni fikrin şaxələri olmaqla qəbulediltəndi. Bu deyimi tamamlayan misralar da

Çiçəkdən də yaxın,
otdan da yaxın
torpaqdır adama
oxşayır, qardaşım

poetik dəyəri ilə səciyyəvidir...

Döyüşçü idi, şəhid oldu. Ürəklərdə yaşamaqdadı...

Şair idi, şeirlərində yaşamaqdadı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**



*Hərbi ənənələr, yeniliklər*

# Altay tankı

Altay tankı Türkiyənin ən müasir tanklarındandır. 1919-1923-cü illərdə İzmir şəhərinin yunan qoşunlarından azad edilməsi uğrunda mübarizə aparmış V suvari korpusunun komandanı general Fəxrəddin Altayın şərəfinə belə adlandırılıb.

Tank klassik tərtibatda hazırlanıb. Maşının transmissiya-mühərrik bölməsi arxa hissədə, idarəetmə bölməsi burun hissəsində, döyüş bölməsi orta hissədə yerləşdirilib. Heyəti dörd nəfərdən - komandir, sürücü-mexanik, tuşlayıcı və təchizatçıdan ibarətdir. Maşının qülləsində sürücü-mexanik üçün üç ədəd prizmalı müşahidə cihazları quraşdırılıb. Bundan başqa müasir gündüz və gecəgörmə nişangahları ilə də təchiz edilib.

Altay tankında əsas silah kimi lüləsinin uzunluğu 55 kalibrli olan120 mm-lik hamar lüləli alman istehsallı Pheinmetall RH 120L55-dən istifadə edilir. Döyüş komplekti standartdır. Maşında 7,62 mm və 12,7 mm-lik pulemyot da yerləşdirilib. Bu silahlar maşının müxtəlif hissələrində yerləşdirilə bilər. Döyüş maşını komandirin olduğu yerdən distansion idarə olunur.

Yeni Altay tankının çəkisi 60 ton, uzunluğu 7735 mm, eni 3972 mm, hündürlüyü 2640 mm-dir. Döyüş komplekti 57 atışdır. Mühərriki 1500 at gücündədir, sürəti saatda 70 kilometrə qədər arta bilər. Çətin keçilən maneələri dəf etməyə qadirdir.

Türkiyə Müdafiə Nazirliyinin planına görə, Altay tankı ölkənin silahlanmasındakı Almaniyanın Leopard 1A, Leopard 2A və Amerikanın M48 və M60 döyüş tanklarını əvəz edəcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 183 Nüsxə 4650 |